# H.Z.Tağıyev haqqında yeni sənədli film

***AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda müsəlman Şərqində qızlar üçün ilk dünyəvi məktəbin yaradıcısı, görkəmli xeyriyyəçi, ictimai xadim Hacı Zeynalabdin Tağıyev haqqında sənədli filmin əsas hissələrinin çəkilişləri baş tutub.***

Film Türkiyə Cümhuriyyətinin Humanitar Kömək Fondu və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən dublyaj studiyasının birgə layihəsidir. Əlyazmalar İnstitutunda aparılan çəkilişlərdə "Avropa. info" xəbər portalının müxbiri, müstəqil tədqiqatçı Azər Hüseynov H.Z.Tağıyevin Azərbaycanda neft, enerji, nəqliyyat, toxuculuq və balıqçılıq sənayesinin inkişafında misilsiz xidmətləri, xeyriyyəçilik fəaliyyəti, el atası olması haqqında ümumi məlumat verməklə yanaşı, ələlxüsus, qızlar məktəbinin açılması üçün təşəbbüsündən və göstərdiyi maliyyə dəstəyindən danışıb. Çəkiliş prosesində bu məktəbin açılışına qarşı çıxanlarla mübarizədə H.Z.Tağıyevin qətiyyəti, bu maneələrin dəf edilməsi, gimnaziyanın açılışı və fəaliyyət tarixi, onun Azərbaycan təhsilinin inkişafında rolu və tanınmış məzunları barədə də ətraflı məlumat verilib.



Filmin səhnələrinin tarixin mühüm hadisələrinə şahidlik etmiş Əlyazmalar İnstitutunun binasının Ekspozisiya zalında çəkilişi təsadüfi deyil. Belə ki, H.Z.Tağıyevin himayədarı olduğu rus-müsəlman qız məktəbi 1901-1918-ci illərdə məhz bu binada fəaliyyət göstərib.

Qeyd edək ki, Hacı Zeynalabdin Tağıyevin həyatını anladan sənədli filmin rejissoru tanınmış filmmaker Muhammed Abdulgafur Şahindir. Onun müəllifi olduğu sənədli filmlər Avropa və Şərq kinoaləmində rəğbətlə qarşılanır. Böyük ekranda yayımlanan "Qüdsün işıqları" sənədli filmi isə Cənubi Afrikada Beynəlxalq Turizm Film Festivalında yüksək mükafata layiq görülüb.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 19 avqust.- S.7.